# Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O sizə də ruzini səhər yuvasından ac çıxıb, (axşam) tox qayıdan quşun ruzisi kimi yetirər

Ömər bin Əl-Xattabdan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O sizə də ruzini səhər yuvasından ac çıxıb, (axşam) tox qayıdan quşun ruzisi kimi yetirər."
[Səhih] [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizi dünyəvi və dini işlərdə faydalı əməllərə sarınmaqla və zərərli şeyləri dəf etməklə izzət və cəlal sahibi olan Allaha güvənməyə təşviq edir, çünki bizə neməti verən, onu bizdən uzaqlaşdıran, zərrəri dəf edib, xeyiri bizə əta edən yalnız pak və uca Allahdır. Allaha sidq qəlblə təvəkkül edib, zərərləri uzaqlaşdırmaq və faydaları əldə etmək üçün səbəblərdən yapışmalıyıq, bunu etdiymiz zaman Allah bizi, səhər ac ikən yuvasından çıxıb, sonra axşam qarnı tox qayıdan quşu ruziləndirdiyi kimi ruziləndirər. Quşun bu hərəkəti, tənbəllik etməyib və başqalarına arxayın olmayıb, ruzi ardınca getmə misallarından biridir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee